BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT 321 (09), 34 (091)**

# QƏDİM DÜNYA ÖLKƏLƏRİNDƏ ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***Nebiyevelbay@gmail.com***

*Məqalədə tarixi aspektdə qədim dünya dövlətlərində, o cümlədən Azərbaycan ərazisində cinayətkarlıqla mübarizədə, dövlət başçısının və dövlətin təhlükəsizliyinin təmin olunmasında, cinayətlərin açılmasında, onları törədən şəxslərin ifşa olunması və axtarıb tapılmasında aşkar və gizli yolla həyata keçirilən müxtəlif üsullardan istifadə olunması məsələləri, bu yönümdə mərkəzi və yerli idarəçilik orqanlarının rolu, eləcə də polis orqanlarının fəaliyyəti araşdırılır. Həmçinin şəxsin cinayət törədib-törətmədiyini, yalan və ya doğru danışdığını müəyyən etmək üçün müxtəlif, eyni zamanda primitiv sübut növlərinə diqqət yönəlmişdir. Cinayəti etiraf etmək üçün işgəncədən geniş istifadə olunması halları vurğulanır.*

**Açar sözlər:** cinayətkarlıqla mübarizə, məlumatlandırma, axtarış, polis orqanları, cinayətlərin aşkarlanması, işgəncə, andiçmə

İnsan cəmiyyətinin bütün inkişaf mərhələlərində dövlətin və cəmiyyətin təhlükəsizliyi, cinayətkarlıqla mübarizə dövlətin mühüm vəzifələrindən biri olmuşdur. Dövlət dövlət aparatı vasitəsilə hüquq mühafizə fəaliyyətinə, o cümlədən hüquq qaydasının təmin olunmasına xüsusi diqqət yetirmişdir.

Qanunçuluğun nəticəsi olan hüquq qaydasının təmin olunmasında cinayət-hüquq vasitələri böyük rol oynayır. Dövlətin cinayət siyasətinin həyata keçirilməsinin mühüm vasitələrindən biri Cinayət Qanunudur. Lakin dövlətin və cəmiyyətin təhlükəsizliyi və cinayətkarlıqla mübarizə təkcə cinayət qanunlarının tətbiqi vasitəsilə deyil, həm də cinayətlərin, onları törədən şəxslərin aşkar edilməsinə, axtarıb tapılmasına, cinayətlərin açılmasına, onların qarşısının alınmasına və s. yönəlmiş müxtəlif üsullar kompleksindən istifadə yolu ilə həyata keçirilir. Sonuncu isə dövlət orqanlarının əməliyyat-axtarış fəaliyyətini və bu yönümdə həyata keçirilən tədbirləri şərtləndirir. Əməliyyat-axtarış fəaliyyəti dedikdə xüsusi (aşkar və qeyri aşkar) üsullarla məlumatın əldə olunması, yoxlanılması, təhlili və sistemləşdirilməsi üzrə bütün səlahiyyətli dövlət orqanlarının spesifik fəaliyyəti anlaşılır.

Əməliyyat-axtarış tədbirləri sayəsində hazırlanan cinayətlərin qarşısı

alınır, törədilmiş cinayətlər aşkar edilir və açılır, cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslər müəyyən edilir, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslər axtarılır, naməlum meyitlərin şəxsiyyəti müəyyən edilir (2, 1-ci maddə). Qanunvericiliklə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün axtarış orqanlarının həyata keçirdiyi əməliyyat axtarış fəaliyyəti çərçivəsində hüquq qaydasının mühafizə istiqamətləri göstərilir. Bunlar siyasi axtarış, cinayət axtarışı, kəşfiyyat və əkskəşfiyyatdır. Dövlətin və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə göstərilən istiqamətlər üzrə əməliyyat-axtarış fəaliyyəti həyata keçirilir.

Cinayətlərin açılmasında, dövlətin təhlükəsizliyinin təmin olunmasında, hərbi yürüşlər və müharibələr zamanı kəşfiyyat və əkskəşfiyyat sayəsində qələbənin əldə olunmasında əməliyyat-axtarış fəaliyyətinin bütün vasitələrindən istifadə bütün dövrlər, o cümlədən qədim dövr üçün də səciyyəvi olmuşdur. Lakin müasir dövrdən fərqli olaraq qədim dövrdə əməliyyat-axtarış fəaliyyətini adlandıran xüsusi terminə rast gəlmək olmur.

Dövlət meydana gəldiyi zamanlardan başlayaraq dövlətin, onun başçısının, mövcud quruluşun təhlükəsizliyi önə çəkilir və bu məsələlərə xüsusi əhəmiyyət verilir. Dövlət başçısına, onun ailə üzvlərinə, mövcud quruluşa, yüksək rütbəli hökumət adamlarına qarşı sui-qəsd, qiyam, üsyan, yerli hökmdarların separatçılıq cəhdləri və s. bu kimi əməllər dövlətin əsaslarına qəsd etdiyi üçün ən təhlükəli cinayətlər sayılırdı.

Siyasi cinayətlərin dövlət üçün böyük təhlükə kəsb etdiyini müxtəlif qədim ölkələrin timsalında müşahidə etmək olar. Məs. Avestaya görə dövlət əleyhinə olan cinayətlərdən hökmdarın həyatına və hakimiyyətinə qarşı sui-qəsd, qiyam və üsyan ən təhlükəliləri hesab edilirdi. Təsadüfi deyil ki, dövlət quruluşuna, hökmdara qarşı olan cinayətlərə görə ölüm cəzası verilirdi. Odur ki, bu cür məsələlər daim dövlət başçısının nəzarətində olmuşdur. Hələ Qədim Misirdə məxfi sənədlərlə davranma qaydalarını nəzərdə tutan xüsusi təlimatlar mövcud olmuş, dövlət sirrini yaymağa görə məsuliyyət müəyyən olunmuşdu. Dövlət sirrinin yayılması ən ağır cinayətlərdən hesab olunurdu. Burada firon dövləti cinayətlərlə, ona qarşı sui qəsdlərlə bağlı məxfi işlərə baxılması üçün etibarlı şəxslərdən ibarət fövqəladə məhkəmə kollegiyası təyin edə bilərdi.

Qədim Çində isə Xan imperiyası dövrünün (m.ə. III - m.sonra III əsrlər) siyasi cinayətkarlara ölüm cəzasının tətbiqi haqqında qanunda göstərilirdi ki, kim hökuməti tənqid etsə, yaxud onun haqqında yaramaz söz danışsa, dili kəsilməlidir, sonra isə arvadı həmin qayda ilə cəzalandırılmalıdır. Yaş dərəcəsindən asılı olmayaraq, siyasi cinayətkarların atası, anası, qardaşları, bacıları və uşaqları da məsuliyyət daşıyırdılar. Qocalar və xırda uşaqlar da işgəncəli surətdə öldürülürdülər. Mövcud quruluşa qarşı çıxanlar çox vaxt qaynar suda və odda yandırmaq, diri-diri torpağa basdırmaq və şaqqalamaq yolu ilə öldürülürdülər (1, 93). Qədim Afinada son dərəcə təhlükəli siyasi cinayətlərdən

sayılan demokratik quruluşa sui-qəsd, onu devirmək cəhdi və s. ölüm cəzası ilə cəzalandırılırdı. Bu cür şəxslər Afinanın düşməni elan olunur və hər bir kəs onları öldürə bilərdi.

Ayrı-ayrı tayfaların azadlıq və istiqlaliyyət uğrunda mübarizəsi, əyalətlər arasında mübarizə (m.ə. XII, VIII əsrlərdə Qədim Çində olduğu kimi) (1, 78, 81) dövləti zəifldən ciddi amillərdən biri olmuşdur. Dövlət öz daxili və xarici təhlükəsizliyini təmin etmək üçün aşkar və gizli tədbirlərdən istifadə etməklə məmurlar vasitəsilə axtarış fəaliyyətilə məşğul olmalı idi.

Bundan əlavə, müxtəlif qruplaşmalar arasında tez-tez baş verən hakimiyyət uğrunda mübarizə hakimiyyəti daim ayıq-sayıq olmağa, bu cür halları vaxtında aşkarlamağa və ciddi mübarizə tədbirləri görməyə sövq edirdi. Bu səbəbdən o zamankı hakimiyyət siyasi axtarış məsələlərinə xüsusi diqqət vermişdir. Bu cür əməllərə görə sərt cəzaların verilməsi təsadüfi deyildi. Məs. Qədim Hindistanda Manu Qanunlarına görə (m.ə. II – m. sonra I əsr) dövlət hakimiyyətinə sui-qəsd, əhali və ya hərbçilər arasında qiyam başın və əllərin yandırılması yolu ilə cəzalandırılırdı.

Yerlərdə separatçılıq meyllərinin qarşısının vaxtında alınması, ümumiyyətlə, yerli idarəçılık üzərində nəzarət mərkəzi hakimiyyətin daim diqqət mərkəzində olmuşdur. Məs. mərkəzləşmiş Manna dövlətində canişinlik idarə üsulu mövcud olmuşdur. "Canişinlər mərkəzi hakimiyyətə tabe olsalar da, geniş səlahiyyətlərə malik olmaları onları bəzən separatçı hərəkətlərə meyllındirirdi. Manna tarixində vilayət canişinlərinin mərkəzi hakimiyyətə qarşı üsyan qaldırmaları barədə məlumatlar vardır. Belə ki, Zikirtu hakimi, Uişdiş hakimi Baqdatti, daha sonra isə canişinlər Dayaukku mərkəzi hakimiyyətə qarşı uzun sürən mübarizə aparmış, hətta bu mübarizə gedişində hökmdar İranzunun oğlu Aza qətlə yetirilmişdi. Lakin mərkəzi hakimiyyət belə separatçı meyllərə qarşı uğurla mübarizə aparırdı" (5, 23-24).

Atropatenanın timsalında isə mərkəzi hakimiyyətin yerli idarəçılık üzərində nəzarəti görmək olar. Belə ki, hökmdar tərəfindən göndərilən və mərkəzi hakimiyyətin təmsilçısı olan katib əyalət hakiminin işlərinə və davranışına göz qoymalı, hakimin öz səlahiyyət həddini aşmamasına nəzarət etməli idi. Öz müşahidələri barədə katib vaxtaşırı hökmdara məlumat verməli idi. Hakimlərin fəaliyyətinə hökmdarın özünə yaxın şəxslərin içərisindən təyin edilən müfəttiş – məmurlar da nəzarət edirdilər (3, 22).

Qədim dövrdə də hər bir dövlət ölkədə sabitliyin yaranmasında maraqlı olmuşdur. Bu səbəbdən əhali, xüsusən də aşağı təbəqələr üzərində nəzarətə ciddi ehtiyac var idi. Hələ Qədim Misirdə adamları məcburi surətdə müxtəlif peşələrə təhkim etmək üçün dövlət müntəzəm olaraq əhaliyə "baxış" keçirirdi. Bu qayda ilə işlə təmin olunan şəxslərə ərzaq və paltar verilirdi. Belə bir tədbiri həyata keçirməkdə dövlətin məqsədlərindən biri ölkədəki siyasi quruluş üçün ciddi təhlükə təşkil edən şəhərlərdəki lümpen proletariatın çoxalmasının qarşısını almaq idi (1, 23).

Bu mənada Qədin Afinada müşahidə olunan səciyyəvi cəhət siyasi axtarışın təzahürlərindən biri kimi qeyd oluna bilər. Burada qabaqlayıcı tədbirlərdən istifadə olunması diqqəti çəkir. Mövcud dövlət quruluşu üçün təhlükəli şəxslər müəyyən olunurdu. Belə ki, m.ə. 509-ci ildə yenicə hakimiyyətə gəlmiş Klisfen yaratmış olduğu quruluşu təhlükəli qəsdlərdən qorumaq məqsədilə hər hansı bir vətəndaşın mövcud quruluşa təhlükə yaratması məsələsinin xalq yığıncağının müzakirəsinə çıxarılmasının təşəbbüskarı oldu. Bu məsələnin prosedur həlli ostrakizm adlandı. Belə ki, öz nüfuzu və əlaqələri ilə sabitliyin pozulmasına, qiyamların baş verməsinə təsir edə biləcək siyasi xadimlər, şəxslər müəyyən olunaraq preventiv (xəbərdaredici) tədbir kimi 10 il müddətinə dövlətdən sürgün olunurdu.

Dövlət quruluşu əleyhinə olan cinayətlərin son dərəcə yüksək sosial təhlükə kəsb etdiyindən hazırlanan cinayətlərin vaxtında aşkar edilməsi olduqca vacib idi. Bunu m.ə. 399-cu ildə Spartada Kinadonun adı ilə bağlı dövlət və ictimai quruluşda çevriliş cəhdində görmək olar. O, tamhüquqlu spartalıların tərkibinə daxil deyildi. Bu səbəbdən sui-qəsd təşkil etmişdir. Lakin hökumət hazırlanan çıxış barədə vaxtında məlumatlandırıldığına görə çevriliş baş tutmamış və sui-qəsdçılər ələ keçirilmişdir.

M.ə. III-I əsrlərdə Qədim Romada üsyanların geniş vüsət alması hakim dairələri bu sahəyə diqqəti artırmağa sövq etdi. Qulların üsyanları ilə mübarizədə ictimai təhlükəsizliyə görə məsul olan magistratlar bəzən provokatorların xidmətindən, yəni qulların öz içində olan satqınlardan istifadə edirdilər. Məs. 198-ci ildə qulların sui-qəsdi hazırlanan zaman iki qul pretoru bu barədə məlumatlandırmış və bununla da sui-qəsdin qarşısı alınmışdı. Sullanının diktaturası dövründə xəfiyyə dəstələri fəaliyyət göstərmişdir. M.ə. 63-cü ildə Siseron Katilinin dövlət çevrilişi etmək cəhdi barədə Kvint Kurinin məşuqəsi Fulvidən məlumat almağa müvəffəq olmuşdur (8, 155). İmperiya dövründə isə gizli polis meydana gəlmişdir. Prinsipat mərhələsində (m.ə. 27 –m. sonra 284-cü il) gizli polis frumentari vəzifəsinin təsis olunması ilə təşkil olundu. Onlar əyalətlərdə bütün proseslərə nəzarət edir və hakimiyyətə məlumat verirdilər. Bu dövrdə Roma şəhərinin prefekti polis koqortalarına sərəncam verirdi. Dominant dövründə (m. sonra 284-476-cı illər) isə ümumimperiya polisinə rəhbərlik edən imperator dəftərxanası rəisinin sərəncamında məxfi tapşırıqları yerinə yetirən xüsusi casurlar fəaliyyət göstərmişdir. Siyasi cinayətlər barədə məlumatların verilməsi mükafatlandırılırdı. İmperiya dövründə mövcud quruluşa qarşı sui-qəsd barədə qərar qəbul olunduqda, amma hələ həyata keçirilmədikdə belə artıq bu əməl cinayət sayılırdı.

Bəzən hakimiyyət dövlət üçün təhlükə kəsb edən əməllər barədə qullara belə müəyyən güzəştlərə getməyə hazır idi. Bu yönümdə səciyyəvi cəhət Qədim Afinada müşahidə olunmuşdu. Belə ki, ümumi qaydaya görə qul məhkəmədə müstəqil çıxış edə bilməzdi. Onu ağası təmsil etməli idi. Lakin qul dövlət üçün təhlükə yaradan və ya digər ictimai təhlükəli əməl barədə

şikayət verdikdə, o nəinki özgə şəxslərə qarşı, hətta öz ağasına qarşı belə müstəqil çıxış edə bilərdi. Qulun verdiyi məlumat öz təsdiqini tapdıqda ona mükafat olaraq azadlıq verilə bilərdi.

Qədim dövrdə bəzi ölkələrdə həm bəzi mühüm vəzifələrə keçən şəxslərin, həm də əhalinin siyasi etibarlılığı dövlətin nəzarətində olmuşdur. Bu da təsadüfi deyildi. Yerlərdə əhali ilə birbaşa ünsiyyətdə olan və hakimiyyəti təmsil edən vəzifə sahibləri loyallıq nümayiş etdirməli, verilmiş səlahiyyətlərdən sui-istifadə etməməli, hakimiyyəti dəstəkləməli, rüşvətə meylli olmamalı və s. Bunun üçün isə onlar müəyyən tələblərə və bir sıra şəxsi keyfiyyətlərə cavab verməli idi. Məs. Qədim Romada son dərəcə yüksək vəzifələr olan konsul və pretor vəzifəsinə namizədlər xüsusi komissiyada ilkin yoxlanışdan keçməli idi.

Qədim Afinada bütün vəzifəli şəxslər dokimasiyadan, yəni vəzifə tutmaq üçün zəruri olan keyfiyyətlərin yoxlanışından keçməli idi. Bu vəzifə dövləti cinayətlərə və vəzifəli şəxslərin sui-istifadələrinə dair işlər üzrə birinci instansiya məhkəməsi qismində çıxış edən Gelieyaya həvalə olunmuşdu. Dokimasiya zamanı həmin vəzifəni tutmaq üçün namizədin müxtəlif senzlərə (yaş, əmlak və s.) cavab verməsi yoxlanılır, əxlaqi siması və siyasi baxışları və s. müzakirə olunurdu. Başqa sözlə desək namizədin siyasi etibarlılığı və şəxsi keyfiyyətləri nəzərdən keçirilirdi. Dokimasiya vasitəsilə hakim dairələr üçün arzu olunmaz namizədin vəzifəyə seçilməsinin qarşısı alınırdı. Dokimasiya səs vermə ilə başa çatırdı. Vəzifəyə qədəm qoyan şəxs and içməli idi.

Əksər Qədim Şərq ölkələrindən fərqli olaraq Antik ölkələrdə, xüsusən də Qədim Afina dövlətində xalq yığıncağı ali dövlət hakimiyyət orqanı olduğuna görə sonuncu dövlətin təhlükəsizliyi məsələləri ilə də məşğul olurdu. Əsas iclasda dövləti cinayətlər barədə fövqəladə məlumatlar dinlənilir, xarici təhlükəsizlik, dövlət xəyanətində ittiham məsələləri müzakirə olunur, vəzifəli şəxslərin fəaliyyəti yoxlanılır, ayrı-ayrı şəxslərin ostrakizm qaydasında sürgün olunması məsələləri həll edilir və s.

Bundan başqa, Qədim Afinada bir sıra dövlət orqanları və vəzifəli şəxslər də təhqiqat, istintaq və məhkəmə funksiyasını həyata keçirirdilər. Burada məhkəmədən öncə istintaqın aparılması məlum idi. Belə ki, tarixən ilk məhkəmə orqanı areopaq olmuşdur. Xalq yığıncağının tapşırığı ilə bu orqan dövləti cinayətlərin istintaqını apara bilərdi. İstintaqın nəticələri barədə xalq yığıncağı məlumatlandırılır, işə isə gelieyada baxılırdı. Dövləti cinayətlərin istintaqı fövqəladə istintaq komissiyaları tərəfindən aparılırdı. (Qədim Romada da mühüm cinayətlərin istintaqı üçün müəyyən komissiyaların yaradılmasına rast gəlmək olar.) Digər hallarda bu funksiya arxontların və digər vəzifəli şəxslərin üzərinə qoyulmuşdu. Məs. strateqlər digər funksiyaları icra etməklə yanaşı, həm də istintaqla məşğul olur və hərbi cinayətlərə dair işlər üzrə məhkəmələrdə sədrlik edirdilər. Şikayət ərizəsi verilən vəzifə sahibinin özü də iş barəsində təhqiqat apara bilərdi (1, 139).

Oxşar vəziyyət Sparta dövlətində də müşahidə olunur. Burada yüksək vəzifə sahibləri olan eforlar bütün vəzifəli şəxslərin fəaliyyətinə nəzarət edir, lazım bildikdə onları tutduğu vəzifədən azad edib işlərini məhkəməyə verir, hamının qayda-qanunlara riayət etmələrinə və öz vəzifələrinin necə yerinə yetirmələrinə nəzarət edirdilər. Eforlar geniş polis hakimiyyətinə də malik idi. Bu da onların ədəb-ərkan, intizam qaydalarına əməl olunmasına nəzarət etmək funksiyasından irəli gəlirdi. Bu nəzarət şahlara da şamil edilirdi. Onlar şahları tutduğu vəzifədən kənarlaşdıra və məhkəməyə verə bilərdilər.

Qədim Romada senat məhkəmə orqanı olmamasına rəğmən xəyanət, sui-qəsd və s. işlər barədə istintaqın aparılmasına dair göstərişlər verə bilərdi. Qədim Roma dövlətində təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət kəsb edən. Belə ki, Respublika dövründə senat ictimai təhlükəsizlik məsələləri üzrə qərarlar qəbul etmək səlahiyyətinə malik idi. Roma dövləti üçün xüsusi təhlükə kəsb etdiyi fövqəladə hallarda (ağır müharibə, qulların böyük üsyanı, ciddi daxili iğtişaşlar baş verdikdə) ekstraordinar magistrantlar yaradılırdı. Senat maliyyə məsələləri üzərində nəzarəti də öz əlində cəmləşdirmişdi. Sullanın diktaturası dövründə (m.ə.82-ci il) xüsusi siyahıya daxil edilmiş şəxslər hər bir kəs tərəfindən öldürülə (və ya ələ verilə) bilərdi. Onların əmlakının bir hissəsi dövlətə, digər hissəsi isə məlumatlandırana keçirdi. Sullanın qanununda sadalanan gizli qatillər sırasında "sehrli pıçıltıyanların" adı çəkilir.

Qədim dövrün tarixi sənədlərində dövləti cinayətlərlə yanaşı digər cinayətlərə, o cümlədən, insanlar, hətta heyvanlar əleyhinə olan cinayətlərə, əmlak cinayətlərinə və s. növ cinayətlərə rast gəlinir. Məs. Qədim dövrdə Azərbaycan ərazisində dövlət əleyhinə olan cinayətlər, hakim dinə (Zərdüştlüyə) qarşı edilən cinayətlər, cadugərlik, təbiət qüvvələri əleyhinə olan cinayətlər, müəyyən edilmiş ayinlərin pozulması və ya onların əleyhinə edilən hərəkətlər, şəxsiyyət əleyhinə olan cinayətlər və s. məlum idi. Oxşar vəziyyət digər qədim şərq ölkələrində - Qədim Misirdə, Babildə, Hindistanda, Çində, eləcə də antik ölkələrdə müşahidə olunur. Qədim Babil məhkəmələrində hökm sürmüş korrupsiya halları da məlum idi (6, 39).

Cinayətlərin mövcudluğu onlarla mübarizəni şərtləndirir. Cinayətkarlıqla mübarizə, cinayətkarların axtarıb tapılması, cinayətlərin qarşısının alınması və digər bu kimi məsələlər dövlət başçılarının, ali dövlət hakimiyyət orqanlarının diqqət mərkəzində olub. Qədim dövrün tarixi sənədlərində, qanunvericilik aktlarında cinayətkarların axtarıb tapılmasına, tutulmasına, yalan məlumat və ifadə verənlərin cəzalandırılmasına həsr olunmuş müddəalara, müvafiq təlimatlara rast gəlmək olar. Hələ Qədim Çində m.ə. V-IV əsrlərdə Li Kuy tərəfindən tərtib olunmuş "Vey şahlığının qanunlar kitabında" o, bütün Çin şahlarının qanunlarını bir yerə toplamış və şahın idarəçilik sahəsində təxirəsalınmaz vəzifəsinin oğru və quldurların məsələsi ilə məşğul olmasının zəruriliyini bildirmişdir. Li Kuyun kitabının birinci fəsli "oğrular və quldurlar" adlandırılmışdır. Cinayətkarların tutulmasını və üzə çıxarılmasını zəruri hesab

edən hüquqşünas kitabın ikinci fəslini "Üzə çıxarmaq və tutmaq" adlandırır.

Göründüyü kimi, hələ qədim zamanlarda cinayətləri, onları törədən şəxsləri aşkar edib axtarıb tapmaq və cəzalandırmaq üçün aşkar və gizli yolla həyata keçirilən müxtəlif vasitələrdən istifadə etmək zərurəti yaradırdı. Bu son dərəcə məsuliyyətli vəzifənin öhdəsindən gəlməsi üçün məhkəmə orqanları yaradılmış və fəaliyyət göstərmişdir. Lakin məhkəmə funksiyası inzibati funksiyadan ayrılmadığına görə əslində cinayətkarlıqla mübarizə əsasən məhkəmə funksiyasını icra edən vəzifəli şəxslərin üzərinə qoyulmuşdu. Xeyli miqdarda məmur quldurlarla mübarizəyə, cinayətkarların axtarıb tapılmasına cəlb olunmuşdu.

Bununla əlaqədar müxtəlif sübut növlərinin, o cümlədən şahidlərin tapılıb ortaya çıxarılması son dərəcə vacib idi. Onları müəyyənləşdirmək üçün isə əməliyyat-axtarış fəaliyyətinə ehtiyac var idi. Lakin dövlətin erkən inkişaf mərhələlərində, bir qayda olaraq məhkəmə hakimiyyəti inzibati idarəçilikdən ayrılmadığından, təhqiqat və ibtidai istintaq ayrıca bir mərhələ təşkil etmədiyindən və onlar biri-birindən fərqlənmədiyindən, axtarış tədbirləri istintaq hərəkətlərindən ayrılmadığından vəzifəsi yalnız cinayətkarlıqla mübarizə aparmaq, cinayətləri açmaq, cinayətkarları axtarıb tapmaq və s. bu kimi məsələlərlə məşğul olan məmurlara, demək olar ki, rast gəlmək olmur. Bir çox halda təhqiqat, ibtidai istintaq və məhkəmə funksiyasının bir məmurun əlində cəmləşməsini bu səbəblə izah etmək olar.

Qədim ölkələrdə ictimai asayişin mühafizəsində polis orqanları mühüm rol oynayırdılar. Qədim Misirdə polis funksiyasını öncə ordu, Yeni Şahlıq dövründə isə xüsusi polis dəstələri yerinə yetirmişdi. Bir zamanlar isə Qədim Misirdə polis funksiyaları nubiya zəncilərinə həvalə edilmişdi. Bəzən bu işin öhdəsindən gəlmək üçün qullardan, döyüşçülərdən istifadə olunurdu. Belə ki, Qədim Afinada dövlət qulları ictimai yerlərdə, məhkəmədə, xalq yığıncağında asayişin mühafizəsinə cəlb olunurdular. Burada polis funksiyasını polis casusları olan xüsusi qullar - toksotlar həyata keçirirdi. Polis funksiyalarının qulların üzərinə qoyulması biri-birinə etibar etməyən və mübarizə aparan hakim sinfin qruplaşmaları arasında kəskin ziddiyyətlərin olmasından xəbər verir. Qədim Babildə peşəkar döyüşçülər polis funksiyasını yerinə yetirirdilər.

Artxaşastraya əsasən hüquq mühafizə orqanlarının iki forması mövcud olmuşdur: pradeştar kollegiyaları və dharmastharların hakim kollegiyaları. Pradeştarlar üç mühüm funksiyanı yerinə yetirirdi: qeyri leqal gəlirlər əldə etmək üçün "gizli istehsalla" məşğul olan şəxslərin axtarışı və cəzalandırılması (IV, 4), məmurların cinayətlərə görə təqib olunması (IV, 9), adamöldürmə, oğurluq və s. kimi ağır cinayətlərin istintaqının aparılması və cəzalandırılması (7, 95). Fikrimizcə, qeyri leqal gəlirlər əldə edənlərlə mübarizə əslində o zamanlarda maliyyə kəşfiyyatının mövcudluğu barədə fikir söyləməyə əsas verir. Pradeştar zərərçəkmiş şəxsin məlumat vermədiyi hallarda belə öz təşəbbüsü ilə istintaq apara və cəza verə bilərdi. Bu işdə onlar casusların xidmətindən geniş istifadə edirdi. Pradeştarlara hüquqpozma törətməkdə şübhəli olan

şəxsləri iş üzrə bütün hallar araşdırılana və aydınlıq gətirilənə qədər saxlamaq icazə verilirdi.

M.ə. VI-IV əsrlərdə Qədim Romada (Respublika dövründə) polis funksiyası edillərin (magistrantların) üzərinə qoyulmuşdu. Onlar şəhərlərdə qayda-qanunlara əməl olunmasına, ticarətin aparılmasına nəzarət edir, yanğın polisi funksiyasını yerinə yetirir və s. Polis funksiyasını aşağı magistrantlar da yerinə yetirirdi.

Göründüyü kimi, sırf təhqiqat funksiyasını yerinə yetirən polis orqanları da demək olar ki, olmamışdır. Məs. Qədin Çində prefektin müavini sayılan yerli polisin sərəncamında silahlı dəstələr və xəfiyyələr fəaliyyət göstərmişdir. Qədim dövrdə, demək olar ki, bütün ölkələrdə dövləti cinayətlər istisna olmaqla işin, təqibin dövlət orqanlarının deyil, özəl şəxslərin təşəbbüsü ilə başlanması və məhkəmə prosesinin çəkişmə formasına üstünlük verilməsi müşahidə olunur. Hətta miladdan sonra da bir müddət bu cür vəziyyətə (məs. Qədim Romada) rast gəlinir. Mübahisə edən tərəflər məhkəməni özlərinin haqlı olduqları barədə inandırmalı və bunun üçün müvafiq sübutlar təqdim etməli idi.

Lakin tədricən çəkişmə prosesi ilə yanaşı axtarış (inkvizisiya) formasının əlamətləri meydana gəlir və bərqərar olur. Belə ki, Maurya dövründə (m.ə. IV-III əsrlər) Qədim Hindistanda imperator və məmurlar onların fikrincə təhlükəli cinayətkarların saxlanılması və şah məhkəməsinə verilməsi barədə əmr verə bilərdilər. Bu dövrdə imperatorun fərmanı ilə axtarılan və tutulan cinayətkar barədə axtarış məhkəməsi fəaliyyət göstərmişdir. Maurya imperiyası dövrünə aid Arthaşastrada bu məqsədlər üçün gizli məlumatlandıranlardan və xəbərçilərdən istifadə olunması göstərilirdi. Qədim Hindistan tarixinin öyrənilməsində böyük əhəmiyyətə malik olan Arthaşastrada dövlət idarəçilik sistemindən, şahın və dövlət məmurlarının fəaliyyətindən, inzibati idarəçilikdən, hərbi və məhkəmə işləri üzrə idarəçilikdən, dövlətin xarici siyasətindən, təsərrüfat məsələlərindən və s. bəhs edilir.

Axtarış prosesinin əlamətləri Qədim Çində də müşahidə olunur. Burada xüsusi məmur tərəfindən aparılan istintaq zərər çəkmişin şikayəti və ya üçüncü şəxsin məlumatı əsasında başlayırdı. Yoxlandıqdan sonra öz təsdiqini tapmış məlumat mükafatlandırılırdı. Mükafatın məbləği cinayətin ağırlığından asılı olaraq müəyyən olunurdu. Məlumat əsasında özəl şəxslərin qulları da məsuliyyətə cəlb oluna bilərdilər. Verilən məlumat dəqiq olmalı idi. Qeyri dəqiqlik cəzalandırılırdı. Hökmdara və dövlətə qarşı cinayətlərə dair məlumatlar istisna olmaqla məlumat "hüququ" şəxsin sosial vəziyyətindən və onun qan qohumluğu əlaqələri sistemində yerindən asılı idi. Yalan məlumat da ciddi cəzalandırılırdı. Atanı öldürmə halları istisna olmaqla (bu halda anadan da məlumat vermək icazə verilirdi) valideynlərdən, baba, nənə və digər yaxın qohumlardan məlumat vermə qadağan idi. Ağanın qiyam və xəyanətdə ittiham olunması halları istisna olmaqla qulun öz ağasından məlumat verməsi cəzalandırılırdı. Qədim Çində anonim məlumatların verilməsi də qadağan idi (7, 174-175).

Qədim Babildə də yalan məlumatın cəzalandırılması nəzərdə tutulmuşdu. Məs. Hammurapi Qanunlarında qeyd olunur ki, cadugərlik sübut olunmadıqda həmin əməlin törədilməsində şübhəli bilinən şəxs çaya düşməli idi. O boğulduqda ittiham edən şəxs mükafatlandırılır və o, birincinin evinə sahib olurdu. İttiham olunan xilas olunduqda isə ittiham edən öldürülməli, onun evi isə ittiham olunana keçməli idi (2-ci mad.). Yalan məlumatlandıranın cəzalandırılmasını həmin qanunların digər maddələrindən də (1, 127-ci mad.) görmək olar. Göründüyü kimi, qanunverici yalan ittihamı da cəzasız qoymur. Məlumat verənlərin mükafatlandırılmasını digər maddələrdə də sezmək olar. Belə ki, ağasından qaçmış qulun ağasına təhvil verilməsi mükafatlandırılırdı (17-ci mad.). Eyni zamanda bəzi hallarda şəxslərin gizlədilməsi, yəni məlumat verməmə cəzalandırılırdı. Meyxanaçı qadının evində əlbir olan cinayətkarları ələ verməyən həmin qadının ölümlə cəzalandırılması nəzərdə tutulmuşdu (109-cu mad.). Şübhə qaldıqda və digər sübutlar olmadıqda isə anddan istifadə olunurdu. Burada diqqəti çəkən səciyyəvi cəhətlərdən biri də odur ki, o zamanki qanunverici həqiqətin müəyyən olunmasında mühüm vasitələrdən biri olan ordaliyaya (allah məhkəməsinə) xüsusi önəm verir.

Oxşar yanaşmalara Qədim Romada da rast gəlmək olar. Respublika dövründə (m.ə. 510 - m.ə. 27-ci illər) burada yalan məlumat verən cəzalandırılırdı. Lakin imperiya dövründə (m.ə. 27 – miladdan sonra 476-cı illər) məlumatlandıranın təhlükəsizliyi təmin olundu. Belə ki, işgəncə vasitəsilə istənilən ittiham öz təsdiqini tapırdı. Qədim Şərq ölkələrində olduğu kimi, Romada da məlumatlandıranlar mükafatlandırılırdı.

Bu yönümdə Qədim Afinanın mühakimə üsulunda olan səciyyəvi cəhətin də qeyd olunması yerinə düşər. Burada işin başlanması üçün iki qayda nəzərdə tutulmuşdu: onlardan biri yalnız zərər çəkmişin təşəbbüsü ilə başlanan proses (dike), ikinci qaydaya görə isə proses istənilən vətəndaşın və ya vəzifəli şəxsin istəyi ilə başlaya bilərdi (graphe). İkinci qaydada məlumat verən şəxs mükafatlandırıla bilərdi (əgər şikayət dövlətin maliyyə hüquqlarının, ticarət qaydalarının və s. pozulmasından verilirdisə), çünki belə hallarda məlumat verən şəxsə müsadirə olunmuş əmlakın və ya cərimənin bir hissəsi verilirdi. Bu da vətəndaşları belə hərəkətlərə həvəsləndirirdi. Bu cür şəxslər sikofant adlanırdı. Beləliklə, Qədim Afinada peşəkar məlumatlandıranlar qrupu formalaşmış və fəaliyyət göstərmişdir. Onların köməyilə müxtəlif növ sui-istifadə halları aşkarlanmış və qarşısı alınmışdı. Bununla belə bu təcrübənin mənfi tərəfi də tezliklə üzə çıxmışdır. Həmin şəxslərin özlərinin də onlara verilmış səlahiyyətlərdən sui-istifadə hallarına təsadüf olunmuşdu. Bu cür halların qarşısını almaq üçün sikofantların ittiham irəli sürmək hədəsi ilə tələb etmələri cinayət sayılmışdır.

Qədim Romada da oxşar vəziyyət müşahidə olunur. Burada imperiya dövründə həm müstəntiq, həm ittihamçı, həm də hakim qismində çıxış edən məmur istədiyi kimi hərəkət edirdi. İşin araşdırılması dəftərxana məxfiliyi

şəraitində baş verdiyindən sui-istifadə halları da az olmamışdır.

Qədim dövrün mənbələrindən məlum olur ki, əksər Qədim Şərq ölkələrində cinayətkarlıqla mübarizə, cinayətlərin aşkarlanması və açılması, onları törədən şəxslərin axtarıb tapılması və cəzalandırılması dövlət başçısının şəxsi nəzarətində olmaqla yüksək rütbəli vəzifəli şəxslərin bilavasitə vəzifəsi idi. Məs. hələ Qədim Misirdə dövlət başçısı olan firon ali məhkəmə və hərbi hakimiyyətə malik olmuş, inzibati hakimiyyətə rəhbərlik etmişdir. Şahın bütün əmrlərinin məxfi müşaviri olan, polis və məhkəmə funksiyasını həyata keçirən vəzir (cati) isə dövlət idarəçiliyinə rəhbərlik etmişdir. Şahlar öz vəzirlərinə təlimatlar ("Vəzir üçün vəzifə təlimatları") verirdi və həmin təlimatlardan sonunculara nə qədər geniş hakimiyyətin verilməsini müşahidə etmək olar. Məmurlar öz işləri barədə vəzirə məruzə etməli və ondan göstərişlər almalı idi. Vəzir qalaların vəziyyəti, sarayla bağlı bütün məsələlərdən, hər bir həbs haqqında məlumatlı olmalı idi. Öz növbəsində cati firona ünvanlanan şikayətlərə baxır, dövlətdə baş verən mühüm hadisələr barədə firona gündəlik məruzə edir, sonuncunun verdiyi göstərişlərin icra olunmasına nəzarət edir, səyahətlər zamanı şahın mühafizəsini təmin edirdi. Qədim şahlıq dövrü (m.ə. 2800-2250-ci illər) vəzirlərindən biri öz vəzifəsini xarakterizə edərək qeyd edir ki, o, məmurlar arasında baş verən narazılıqları həll etməkdə, şahın əleyhinə olan adamlara qarşı polis və məhkəmə funksiyasını həyata keçirməkdə, qanun pozuntuları ilə bağlı şikayətlərə baxmaqda səlahiyyətli idi. Başqa sözlə desək ölkənin iqtisadi və siyasi həyatına aid bütün məsələlər barədə vəzir məlumatlı olmalı idi. Bu səbəbdən vəzir ölkədə baş vermiş və baş verə biləcək dövlət əhəmiyyətli bütün mühüm hadisələr, məsələlər barədə müxtəlif etibarlı mənbələrdən məlumatlarla təchiz olunurdu.

Qədim Misirdə, demək olar ki, bütün məmurlar eyni zamanda təsərrüfat, hərbi, məhkəmə və dini fəaliyyətlə də məşğul olmuşlar. Bununla belə məhkəmə prosesinin aparılması tapşırılmış hakim eyni zamanda şikayətləri qəbul etməli, ibtidai istintaqı aparmalı, cinayətkarın axtarılması və tutulması üçün müvafiq tədbirlər görməli idi. "Hakim işi qanuna və ədalətə əsasən həll etməli idi" (4, 33). İşin qaldırılmasından əsassız imtina edən hakim cəzalandırılırdı.

Qədim Babildə də oxşar vəziyyət müşahidə olunur. Burada məhkəmə hakimiyyətini şah həm özü, həm də onun tapşırığı ilə "şah məhkəmələri" həyata keçirə bilərdi. Onlar şahın göstərişi ilə fəaliyyət göstərirdi. Bu "şah hakimləri" peşəkar hakimlərdən və ya yerli əyanların nümayəndələrindən seçilirdi. Burada məhkəmə funksiyasını vilayət hökmdarları olan şakkanakular, rabianular (şəhər hökmdarları) həyata keçirirdilər. Müxtəlif kollegiyaların köməyilə məhkəməni həyata keçirən yerli administrasiya orqanlarından əlavə bəzi inzibati funksiyalarla məşğul olmaqla yanaşı məhkəmə məsələləri ilə də məşğul olan peşəkar hakimlər fəaliyyət göstərmişdir.

Qədim Hindistanda da m.ə. 1 minillikdə meydana gəlmiş ilk dövlət qurumlarında rac adlanan hökmdar xarici təhlükəsizliyi təmin edir, məhkəmə

funksiyasını həyata keçirirdi. Qədim Hindistan tarixinin öyrənilməsində mühüm mənbələrdən biri olan Artxaşastrada (m.ə. IV əsr) göstərilir ki, Hind şahının səlahiyyətlərindən biri casuslardan gizli məlumat almaq idi. Hökmdarlar ölkəni və onun əhalisini həm xarici, həm də daxili düşmənlərdən qorumalı idi. Bunun üçün xəfiyyələrin köməyindən geniş istifadə olunurdu. Şahın özünə tabe olan xəfiyyələr dövlətin idarə olunmasında böyük rol oynayırdılar. Ərazinin və əhalinin müdafiəsi üzrə hakimiyyət orqanlarının əsas funksiyaları oxşar idi. Yüksək vəzifələrdən biri olan amatya sərhədlərin müdafiəçisi, məhkəmələrə nəzarətçi, oğruların tutulmasına görə məsul olan şəxs idi (7, 92).

Qədim şahlıq dövründə Misirdə icma şuraları olan cacatlar yerlərdə məhkəmə, təsərrüfat və inzibati hakimiyyətə malik olmuşlar. Sonrakı dövrlərdə isə onlara rəhbərlik edən icma starostaları (kəndxudalar) mərkəzləşmiş dövlət aparatının məmurlarına çevrildilər. İlk zamanlarda polis funksiyalarını ordu yerinə yetirir, sonra isə - Yeni şahlıq dövründə bu funksiya paytaxtın, kanalların və s. mühafizəsi ilə məşğul olan xüsusi polis dəstələrinə keçdi. Nom ərazisində nomarxlar inzibati və məhkəmə hakimiyyətini icra edirdilər.

Qədim Babildə də məhkəmə və inzibati səlahiyyətlərə malik olan şah canişinləri həbsləri, cinayətkarların axtarışını həyata keçirirdilər. II Ur sülaləsinin sənədlərində (m.ə. III minilliyin ikinci yarısı) hakimlərin "rabişu" adlı köməkçiləri qeyd olunur. Hakimlər kimi onlar da bəzi nəzarət funksiyalarına malik olmuşlar. Hakimlərin sərəncamında "hakim əsgəri" adlı məmurlara rast gəlinir. Hardasa hakim rütbəsini xatırladan bu məmur hakimin tapşırıqlarını yerinə yetirirdi.

Midiya dövlətində də yerlərdə tam hakimiyyətə malik olan satraplar inzibati funksiyalarla yanaşı məhkəmə hakimiyyətini həyata keçirirdilər. İnzibati idarəçilik sistemində şəhər hakimi vəzifəsi qeyd olunur. Onlar yerli hakimlərin, qismən də canişinlərin funksiyalarına oxşar səlahiyyətləri həyata keçirirdilər (3, 20). Burada vilayət hakimləri və onların təyin etdikləri köməkçılər məhkəmə funksiyasına malik olmuşlar. Hakim köməkçiləri rəhbərlik etdikləri ərazinin daxili təhlükəsizliyini və qaydanı təmin etməli idi.

Midiyada da şahlar canişinlərin fəaliyyətini ciddi nəzarətdə saxlayırdılar. Bu təsadüfi deyildi, çünki (yuxarıda göstərildiyi kimi) bəzən canişinlər mərkəzdən ayrılmağa cəhd göstərirdilər. Onlara nəzarət üçün şahın "gözləri və qulaqları" adlanan xüsusi adamlar vilayətlərə göndərilirdilər. Onlar bütün ölkəni gəzərək gizli təftişlər həyata keçirir və satraplıqlardakı bütün işlərin vəziyyəti haqqında hökmdara məlumat verirdilər (11, 19). Bu cür məmurlar yerlərdə əhalinin əhval-ruhiyyəsinə nəzarət edir, üsyanlar, sui-qəsdlər, qiyamlar, separatçılıq meylləri barədə məlumatlar toplayırdılar. Onlar hətta vilayət canişini olan satrapın özünü belə həbs edə və ya ölümə məhkum edə bilərdilər (10, 246). Burada da hakimiyyət nümayəndələri polis funksiyalarını icra edirdilər. Bu işdə onlara şəhər hakimləri yaxından köməklik göstərirdilər. Polis funksiyasını yerinə yetirən xəbərgəzdirənlər və mühafizəçilər dövlətin

hər yerində fəaliyyət göstərirdilər (3, 20). Atropatena dövlətində də hakim köməkçıləri bir sıra funksiyalarla yanaşı onlara həvalə olunmuş ərazidə daxili təhlükəsizliyi və qaydanı təmin etməklə məşğul olurdular (3, 22).

Qədim Hindistanda şəhər hakimiyyəti cinayətkarlıqla mübarizədə mühüm rol oynayırdı. Onlar öz agentlərinin köməyilə axtarışlar aparır, naməlum şəxsləri saxlayır, emalatxanalarda, içkixanalarda tutatutla məşğul olurdular.

Cinayətkarlıqla mübarizədə icma da kənarda qalmamışdı. Məs. Qədim Çində icma administrasiyasının nümayəndələri kəndin mühafizəsini təmin etməli idi. Qarşılıqlı izləmə, nəzarət, məsuliyyət sistemi: ellik zəmanət üzərində qurulmuş kəndli icmasından tutmuş əmri pozmağa və ya tabelikdə olan məmurların yaratmaz fəaliyyətinə görə məsuliyyət daşıyan yüksək rütbəli məmurlara qədər bütün səviyyələrdə səciyyəvi hal olmuşdur (9, 55). Şəhər ağsaqqallar şurasının başçıları olan sanlaolar yerlərdə polis vəzifələrini yerinə yetirirdilər. Qədim Babildə icma yığıncaqları həm məhkəmə funksiyasına malik olmuş, həm də ictimai asayişin mühafizəsinə nəzarət etmişlər. Lakin şah hakimiyyətinin güclənməsi icmaların məhkəmə səlahiyyətlərinin məhdudlaşdırılmasına gətirib çıxardı.

İstər məhkəmə hakimiyyətinin, istərsə də inzibati hakimiyyətin yerlərdə eyni orqanlar və məmurlar tərəfindən həyata keçirilməsinə digər qədim şərq ölkələrində də rast gəlmək olar. Məs. Manna dövlətində ərazi icmalarına başçılıq edən yaşayış məskənlərinin (kənd) hakimləri "belali"lər məhkəmə fəaliyyəti ilə yanaşı bəzi inzibati işlərlə də məşğul olurdular. Qədim Babildə isə ayrı-ayrı hallarda icma öz ərazisində baş vermiş cinayətə görə məsuliyyət daşıyırdı. Belə ki, Hammurapi Qanunlarının 23-cü maddəsinə görə qarətçi yaxalanmadıqda icma və rabianum (icma starostası) məsuliyyət daşıyırdı (12, 14). Cinayətkarın şəxsiyyətinin naməlum qaldığı halda ərazi icmasının məsuliyyət daşıması qəbilə-tayfa münasibətlərinin qalığı kimi dəyərləndirmək olar. İcma şurası bir sıra digər vəzifələr daşımaqla yanaşı, həm də ictimai asayişin mühafizəsi üzrə məhkəmə-polis funksiyasını icra edirdi.

Mauryaya qədərki dövrdə Qədim Hindistanda məskən salmış arilər kənd icmaları şəklində yaşamışlar. Bu cür icmalara Rac deyilən hərbi rəhbər, kənd ağsaqqalı və kahin rəhbərlik edirdi. Bundan başqa bir sıra konkret funksiyaları icra edən digər vəzifəli şəxslərə rast gəlmək olar. Kənd işlərinə potel adlanan şəxs başçılıq edirdi. O, kənd sakinləri arasında baş verən ixtilafları həll edir, polisə başçılıq edir, vergi toplamaqla məşğul olurdu. Karnum deyilən başqa bir vəzifəli şəxs əkinçilik işlərinə nəzarət edirdi. Talyor adlı vəzifə sahibi cinayətlər və xətalar haqqında məlumatlar toplayırdı.

Qədim dövrdə şəxsin cinayət törədib-törətmədiyini, yalan və ya doğru danışdığını müəyyən etmək üçün müxtəlif sübut növlərindən - etirafdan, şahid ifadələrindən, zərər çəkmişin ifadəsindən, maddi sübutlardan, sənədlərdən istifadə olunmuşdur. Manna dövlətində "cinayətin etiraf edilməsi təqsirin sübut edilməsinin mühüm halı hesab edilirdi. Lakin müqəssirin etirafından sonra

məhkəmə bu etirafın həqiqiliyini yoxlayırdı" (3, 36). Qədim Hindistanda işə baxılarkən istifadə olunan vasitələr, aşağıdakı ardıcıllıqla sadalanır: "bəlli həqiqət, öz etirafı, hər iki tərəfin ifadələrinə düzgün baxılması, məntiq və and içmə" (III, 39, 40, 46). Arthaşastraya görə hətta "aldatma yolu" ilə də sübutlar əldə etmək olardı. Lakin sübuta yetirmə üsullarının seçimində çətinliklərlə qarşılaşan hakim maddi sübut tələb edə bilərdi. Manu Qanunlarında göstərilir ki, oğurlanmış əmlak və ya oğurluq aləti oğruda tapılmadıqda ədalətli şah onu cəzalandırmaz (IX, 270). Cinayət əşyaları və ya alətləri tapılmadıqda hakim şahidin, təqsirləndirilən şəxsin davranmasına, hərəkətlərinə, zahiri görkəminə diqqət verib onların düşündüyünü üzə çıxarmalı idi. Bu da hakimin özbaşınalığına şərait yaradırdı. Arthaşastra hakimə kömək məqsədilə ifadənin şübhə doğuran hallarını da göstərir: dindirilən şəxs müzakirə predmeti olan məsələdən yayınıb başqa məsələyə keçməsi, əvvəllər dediyi ilə sonralar dediyi arasında uyğunsuzluğun olması, şahidlərin təsdiq etdiklərini qəbul etməməsi, münasib olmayan yerdə şahidlərlə görüşüb söhbət etməsi.

Bununla belə, göstərilən sübut növlərini tapmaq mümkün olmadıqda yaranmış boşluqları doldurmaq üçün bir sınaq olaraq ordaliyadan (allah məhkəməsindən) və andiçmədən geniş istifadə olunurdu. Buna yer üzündəki vasitələrlə həqiqəti üzə çıxarmaq mümkün olmadığı hallarda müraciət olunurdu. Hesab olunurdu ki, allah sanki müəyyən işarə ilə şəxsin cinayət törədib-törətmədiyi, yalan və ya doğru danışdığını bildirməlidir. Bu cür hallarda bu simvolik "sübutlar" məhkəmə qərarlarına həlledici təsir göstərirdi. Belə hesab olunurdu ki, bu yolla "allahın iradəsi" üzə çıxır, allah isə haqsızın, ədalətsizin tərəfində ola bilməz.

İstər qədim dövrdə, istərsə də orta əsrlərdə ordaliyanın müxtəlif növlərinə (daha dəqiq desək sınaq növlərinə) rast gəlmək olar. Məs. Qədim Babildə bu sübut növünə görə şəxsi suya atmaq yolu ilə sınaqdan keçirirdilər. Bundan başqa, közərmiş dəmiri əldə tutmaq, qaynayan suyun içərisinə atılan hər hansı bir əşyanı əllə çıxarmaq, odla ordaliyadan, əridilən metalla ordaliyadan (sınaq zamanı əridilən metal sinəyə tökülürdü) və s. növlərindən istifadə olunurdu. Məs. Qədim Babildə Hammurapi Qanunlarının 2-ci maddəsinə görə, şübhə altında olan şəxs bəraət qazanmaq üçün suya girməli idi. Əgər həmin şəxs boğulurdusa o, günahkar sayılırdı və Çay onu cəzalandırırdı. Əgər çaya atılan salamat çıxırdısa o, bəraət qazanırdı.

Anddan bir sübut növü kimi əsasən başqa sübut növləri olmadıqda istifadə olunurdu. Belə hesab olunurdu ki, allah, yalandan and içəni mütləq cəzalandıracaqdır. Belə ki, həmin qanunların 23-cü maddəsinə görə icma üzvünün əmlakının oğurlanması haqqında andı, icma tərəfindən zərərin ödənilməsinə səbəb olur. Qədim Hindistanda varna-kasta sisteminin hökm sürdüyü şəraitdə hər bir varna üzvünün öz andı var idi. Manu Qanunlarına görə brəhmənin andı onun doğru sözü, kşatrinin andı – təkərli arabası və silahı, vayşinin andı – inəkləri, taxılı və qızılı, şudranın andı isə - ağır cinayətləri idi

(VIII,113) (4, 88). Andiçmə kifayət etmədikdə təqsirləndirilən şəxs "əlinə od almalı" və ya çaya girməli idi. Əli yanmazdısa və o boğulmazdısa sınaqdan çıxmış sayılırdı (VIII, 115). Qanunlarda ordaliyanın mənası belə izah olunur: "cinayətkarlar düşünür: "bizi heç kəs görmür, lakin onları allahlar görür" (VIII, 85). Qədim Misirdə yalan andiçmə, yalan məlumat vermə ölüm cəzası ilə cəzalandırılırdı (6, 30).

Təsvir olunan dövrdə təqsirləndirilən şəxs cinayəti etiraf etmədikdə ona təzyiq göstərmək üçün axtarışın mühüm metodu olan işgəncədən geniş istifadə olunurdu. İşgəncə "həqiqətin" müəyyən olunmasında geniş yayılmış vasitə idi. Təqsirləndirilən şəxs cinayəti etiraf etmədikdə ona işgəncə tətbiq olunurdu. Göründüyü kimi, bu vasitə ilə məmurlar onları maraqlandıran və onlara lazım olan məlumatlar əldə etməyə çalışırdılar. İşgəncə şahidə də tətbiq oluna bilərdi. Bu yolla ittihamçı qismində çıxış edən, həm də məhkəmə funksiyasının yerinə yetirən hakim ondan istədiyi ifadəni almağa çalışırdı. İşgəncə vasitəsilə istənilən ittiham təsdiq olunurdu.

Yuxarıda göstərilən qeyri adi sübut növlərinin qədim dövrdə geniş yayılması belə qənaətə gəlməyə əsas verir ki, birincisi, hüququn dinlə sıx bağlı olduğunu, ikincisi, cinayətlərin açılmasına, cinayətkarların axtarıb tapılmasına görə məsuliyyət daşıyan dövlət orqanlarının və məmurların başqa tədbirlərdən istifadə etməyə qadir olmadığını və aciz olduqlarını, üçüncüsü, işgəncədən geniş istifadə etmək imkanının mövcudluğu şəraitində məmurlar asan yollarla məqsədlərinə nail olmağa çalışdıqlarını nümayiş etdirir.

Beləliklə, Qədim dövrdə dövlətin əsaslarına, mövcud rejimə və quruluşa qəsd edən, hökmdara, onun ailə üzvlərinə qarşı yönəlmiş cinayət əməlləri xüsusi təhlükə kəsb etdiyindən hakimiyyət orqanları onlarla mübarizəyə xüsusi önəm vermişdir . Bu, eləcə də digər kateqoriya cinayətlərlə mübarizədə hakimiyyət xüsusi adamlarınköməyilə aşkar və qeyri aşkar üsullarla cinayətlərin hazırlanması, baş verməsi, baş vermiş cinayətlərin açılması, cinayətkarların ifşa olunub tutulması barədə lazımi məlumatlar əldə etməyə çalışırdılar. Digər üsullarla da məlumatların əldə olunması mümkün idi. Məlumatlandıranların mükafatlandırılması geniş yayılmışdı. Bu da məlumatlandırmanın nə dərəcədə effektiv olmasının göstəricisidir.

Vəzifə bölgüsünün bir o qədər də inkişaf etmədiyi şəraitdə mərkəzi idarəçilikdən tutmuş yerli idarəçiliyə qədər müxtəlif məmurlar cinayətkarlıqla mübarizəyə, onların qarşısının alınmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə cəlb olunmuşlar. Cinayətkarlıqla mübarizə aparan peşəkarların olmaması bu məsələyə mənfi təsir göstərən amillərdən biridir.

Ədalət mühakiməsini həyata keçirməklə məşğul olan hakim, başqa funksiyaları yerinə yetirməklə yanaşı həm də ittihamçı qismində çıxış edir, işin araşdırılması ilə məşğul olurdu.

Dövləti cinayətlər istisna olmaqla məhkəmə təqibi şikayət və ya məlumat əsasında başlaya bilərdi.

Ölkədə siyasi sabitliyin təmin olunmasında maraqlı olan dövlət, mərkəzi hakimiyyət yerli idarəçilik, əhali üzərində nəzarəti daim diqqət mərkəzində saxlamışdır. Xeyli səlahiyyətlərə malik olan və daim əhali ilə təmasda olan vəzifəli şəxslərin hakimiyyətə, siyasi rejimə siyasi etibarlılığı da dövlətin nəzarətində olan ciddi məsələlərdən biri olmuşdur.

Ordaliya, andiçmə, işgəncə kimi primitiv üsullardan istifadə edən məmurlar cinayətkarlıqla mübarizədə əslində öz işlərini asanlaşdırmış olurdular.

## ƏDƏBİYYAT


1. Əliyev Ə. Quldarlıq ölkələrinin dövlət və hüquq tarixi. Bakı: BDU, 1991, 207 s.
2. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli 728-İQ saylı Qanunu.
3. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 719 s.
4. Məlikova M., Nəbiyev E. Xarici ölkələrin dövlət və hüquq tarixi // Bakı: Elm və həyat, 2005, 464 s.
5. Seyidov M. Qədim dövrdə və erkən orta əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunvericiliyinin formalaşması. Bakı, 2008, 139 s.
6. Всеобщая история государства и права / Под ред. В.А.Томсинова. Т.1, М.: Зеркало-М, 2002, 625 s.
7. История государства и права зарубежных стран. / Под ред. Н.А.Крашенинниковой и О.А.Жидкова. Т 1, 3-е изд., М.: Норма Инфра-М, 2010, 719 s.
8. История государства и права зарубежных стран. / Под ред. П.Н.Галанзы, М.: Юридическая литература, 1980, 550 s.
9. История государства и права зарубежных стран. Ч.1. Под ред. Жидкова О.А. и Крашенинниковой Н.А. М.: Московский Университет, 1988, 352 s.
10. История древнего мира. / Под ред. Крушкол Ю.С. Ч-1, М.: Просвещение, 1979, 287 s.
11. Пигулевская Н.В., Ялубовский А.В. и др. История Ирана с древнейших времен до конца XVIII в. Л.: Издательство Ленинградского Университета, 1958, 389 s.
12. Хрестоматия по истории государства и права зарубежных стран. Под ред. Черниловского З.М., М.: Юридическая литература, 1984, 472 s.


## НЕКОТОРЫЕ ВОПРОСЫ ОПЕРАТИВНО-РОЗЫСКНОЙ ДЕЯТЕЛЬНОСТИ В СТРАНАХ ДРЕВНЕГО МИРА


**Э.К.НАБИЕВ**


## РЕЗЮМЕ


В статье в историческом аспекте в государствах древнего мира, в том числе на территории Азербайджана исследуются некоторые вопросы, а именно различные приемы и методы, направленные на обнаружение, раскрытие преступлений, розыск преступников, роль центральных и местных органов, а также полицейских органов в борьбе с преступностью. Кроме того, обращается внимание на существовавшие примитивные виды доказательств при установлении лиц, совершивших преступления. Автор отмечает, что для получения признательных показаний широко практиковалось применение пыток.



**Ключевые слова:** борьба с преступностью, осведомление, розыск, полицейские органы, обнаружение преступлений, пытка, давать клятву

## SOME PROBLEMS OF OPERATIVE INVESTIGATORY ACTIVITY IN THE STATES OF THE ANCIENT WORLD

**E.G.NABIYEV**

**SUMMARY**

The article deals with the study of different ways and methods of disclosing crime, detection of criminals, the role of central and local organs and law enforcement agencies struggling against criminality in the states of the ancient world, as well as on the territory of Azerbaijan. Besides, the author focuses on the existence of primitive kinds of evidences in the detection of committed crimes and notes that torturers were widely practiced.

**Key words:** struggle against crime, notification, investigation, law enforcement agency, detection of crimes, torture, swear